

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 160 (21.312)

18 avqust 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 17 avqust tarixli Sərəncamı ilə xidməti vəzifələrini yerinə yetirərkən əldə etdikləri yüksək nailiyyətlərə görə və Dövlət Sərhəd Xidməti əməkdaşlarının peşə bayramı günü münasibətilə Dövlət Sərhəd Xidmətinin bir qrup hərbi qulluqçusu təltif edilmişdir. Təltif olunanlar arasında “Naxçıvan” Sərhəd Diviziyasının hərbi qulluqçuları da vardır.

**3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə**

Quliyev Asəf Vaqif oğlu – general-mayor

**“Hərbi xidmətlərə görə” medalı ilə**

Həsənov Röyal Nüsrət oğlu – kapitan

Həşimov Pərviz Mehman oğlu – kapitan

## S.H.İbrahimovun Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri vəzifəsindən azad edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Sarvan Hüseyn oğlu İbrahimov Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 17 avqust 2015-ci il*

## Naxçıvanda İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin sərgisi açılmışdır






Avqustun 14-də Naxçıvan şəhərində İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin birinci “İstehsal və ixracat imkanları” sərgisi açılmışdır.

Bu münasibətlə keçirilən tədbirdə əvvəlcə “Qurani-Kərim”dən ayələr oxunmuşdur.

Tədbirdə İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrom çıxış edərək demişdir ki, bu gün Qərbi Azərbaycan Vilayəti ilə Naxçıvan Muxtar Respublikası arasındakı əlaqələr uğurla inkişaf etdirilir. Həyata keçirilən qarşılıqlı səfərlər əməkdaşlıq üçün yeni imkanlar açmış, iqtisadi-ticarət əlaqələri genişləndirilmişdir. Naxçıvan şəhərində təşkil olunan bugünkü sərgi də əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır.

İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayəti ostandarının birinci müavini Əlirza Radfər sərginin yüksək səviyyədə təşkilinə görə minnətdarlıq etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinə səfərini xatırladan Əlirza Radfər demişdir ki, bu səfər zamanı imzalanmış memorandum nəticəsində bu gün əlaqələr sürətlə inkişaf edir. O, qarşılıqlı olaraq belə sərgilərin keçirilməsinin əməkdaşlığın inkişafına əvəzsiz töhfələr verdiyini diqqətə çatdırmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini Azər Zeynalov sərgi iştirakçılarını Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri adından salamlayaraq demişdir: 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olarkən, o vaxt da İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin ostandarı olan Qurbanəli Səadətin dəvəti ilə Qərbi Azərbaycan Vilayətinə səfər etmişdir. Səfər zamanı qarşılıqlı əlaqələrin inkişafını özündə əks etdirən memorandum imzalanmışdır. Bu memorandumla Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın Qərbi Azərbaycan Vilayəti arasında əlaqələrin əsası qoyulmuşdur. Bu gün Azərbaycan-İran əlaqələri ölkə prezidentlərinin səyləri nəticəsində sürətlə inkişaf etdirilir.

Qeyd olunmuşdur ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasındakı əlaqələr Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və İran İslam Respublikasının yaxın vilayətlərinin rəhbərlərinin qarşılıqlı səfərləri ilə yüksək səviyyəyə çatdırılmışdır. Ali Məclis Sədrinin İran İslam Respublikasının Qərbi və Şərqi Azərbaycan vilayətlərinə səfərləri çərçivəsində iqtisadi, mədəni, təhsil və idman sahələrində əməkdaşlığın inkişafını özündə əks etdirən memorandumların imzalanması əlaqələrin möhkəmlənməsinə əsaslı zəmin yaratmışdır. Bugünkü sərgi də Naxçıvan Muxtar Respublikasının iş adamlarının İran İslam Respublikasının Urmiya şəhərində keçirdikləri sərginin davamıdır.

Sonra açılış lenti kəsilmiş və sərgiyə baxış olmuşdur.

Məlumat verilmişdir ki, İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin 20 şirkətinin iştirak etdiyi sərgi avqustun 18-dək davam edəcəkdir. Sərgidə sənaye və kənd təsərrüfatı, əl işləri, xalçalar və rəsm əsərləri olmaqla, 36 növdə məhsul nümayiş olunur.

Həmin gün Qərbi Azərbaycan Vilayəti ostandarının birinci müavini Əlirza Radfər və qonaqlar Naxçıvan Biznes Mərkəzində muxtar respublikanın istehsal müəssisələrinin məhsullarına baxmış, “Ləzzət Biskvit və Şokolad Fabriki” Məhdud Məsuliyyətli Cəmiyyətində, “Gəmiqaya Mebel Fabriki” Məhdud Məsuliyyətli Cəmiyyətində və “Naxçıvan bağları” istixana kompleksində istehsalat prosesi ilə tanış olmuşlar.

**“Şərq qapısı”**

*Avqustun 16-da Əlahiddə Ümumqoşun Orduda 2015-ci ilin iyul ayı ərzində həqiqi hərbi xidmətə çağırılmış əsgərlər hərbi and içiblər.*

## Andiçmə mərasimi keçirilib

Əvvəlcə 2015-ci ilin iyul ayı ərzində həqiqi hərbi xidmətə çağırılmış əsgərlərin andiçmə mərasiminə hazırlıqları ilə bağlı məruzə edilib. Mərasimə hərbi hissənin Döyüş bayrağı gətirildikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və hərbi andiçmə mərasimi açıq elan edilib.

Komandirlərinin və valideynlərinin şahidliyi ilə əllərini üçrəngli bayrağımız üzərinə qoyaraq Vətənə, xalqa sədaqət andı içən gənc əsgərlər təntənəli surətdə vəd ediblər ki, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini qoruyacaq, bundan ötrü qanlarını və canlarını əsirgəməyəcəklər.

And içmiş əsgərlərin nəzərinə çatdırılıb ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğu siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Göstərilən qayğının nəticəsidir ki, şəxsi heyətinin mənəvi-psixoloji, fiziki və döyüş hazırlığı yüksək səviyyədə olan Əlahiddə Ümumqoşun Ordunun silah arsenalında işğalçıları tez bir zamanda məhv etməyə hesablanmış silahlar mövcuddur. Bunun üçün də hər bir əsgər çalışmalıdır ki, komandirlər tərəfindən onlara öyrədilən silah və texnikanın sirlərini dərindən mənimsəsinlər.

Zabitlər, əsgərlər, valideynlər və digər çıxış edənlər hərbi andı qəbul edən əsgərləri təbrik edərək onlara xidmətlərində uğurlar arzulayıblar.

Sonda şəxsi heyətin tribuna önündən təntənəli keçidi olub.

Qeyd edək ki, həmin gün Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında da gənc əsgərlərin andiçmə mərasimi keçirilib.

**Xəbərlər şöbəsi**

## Cari ilin birinci yarısında kreditlərin ölkə üzrə ən aşağı faiz dərəcəsi Naxçıvan Muxtar Respublikasında müşahidə edilmişdir

*Muxtar respublikada fəaliyyət göstərən bank və digər kredit təşkilatları tərəfindən iqtisadiyyatın kreditləşdirilməsi vəziyyəti diqqəti xüsusən cəlb edir. Belə ki, cari ilin yanvar-iyul aylarında keçən ilin müvafiq dövrü ilə müqayisədə bankların iqtisadiyyatı kreditləşdirməsi 44,2 faiz artaraq 47 milyon 347 min manata çatmışdır. Bu müddət ərzində verilmiş kreditlərin 13 milyon 234 min manatı qısamüddətli, 34 milyon 113 min manatı isə uzunmüddətli olmuşdur.*

Ümumiyyətlə, avqustun 1-nə muxtar respublikada cəmi kredit qoyuluşunun həcmi 121 milyon 988 min manat olmuşdur ki, bunun da 15 milyon 360 min manatı qısamüddətli, 106 milyon 628 min manatı isə uzunmüddətli kreditlərin payına düşür.

Bəhs olunan dövrdə verilmiş kreditlərin strukturunda ən böyük payı kənd təsərrüfatının inkişafı ilə əlaqədar kreditlər təşkil edir. Belə ki, bu sahə cari ilin ilk yeddi ayı ərzində verilmiş kreditlərdə 12 milyon 607 min manatla 26,6 faizlik bir paya malikdir. Kənd təsərrüfatının müxtəlif sahələrinin kreditləşdirilməsi zamanı əsas diqqət mərkəzində olan sahə məhz heyvandarlıq olmuşdur ki, bu məqsədlə sözügedən dövr ərzində 10 milyon 123 min manat kredit resursu cəlb edilmişdir. Bitkiçiliyin, arıçılığın, quşçuluğun, meyvəçilik və bağçılığın inkişafı da diqqətdən kənarda qalmamış, bitkiçiliyə 1 milyon 532 min manat, arıçılığa 378 min manat, quşçuluğa 552 min manat, meyvəçilik və bağçılığın inkişafı üçün isə 22 min manat kredit resursu cəlb edilmişdir.

Bu gün kənd təsərrüfatı ilə yanaşı, muxtar respublika iqtisadiyyatının inkişafında əsas rol oynayan sahələrdən biri də məhz sənayedir və bu sahənin inkişafına yönəldilmiş investisiyaların həcmində banklar tərəfindən verilmiş kreditlərin də xüsusi rolu vardır. Adıçəkilən dövr ərzində bu sahənin inkişafı üçün ehtiyac duyulan maliyyə resurslarının təmin edilməsi məqsədilə muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən 10 milyon 737 min manat həcmində kredit verilmişdir ki, bu da ötən müddət ərzində verilmiş kreditlərin 22,7 faizini təşkil edir. Eyni zamanda bu sahədə ötən ilin müvafiq dövründə verilmiş kreditlərlə müqayisədə 8 milyon 490 min manat artım qeydə alınmışdır.

Daşınmaz əmlakla əlaqədar ipoteka kreditləri, ticarət və nəqliyyat, rabitə sahələrinə yönəldilmiş kreditlərin həcmində də ötən ilin müvafiq dövrü ilə müqayisədə artımlar müşahidə olunmuşdur. Belə ki, muxtar respublikamızın gənc sakinlərinin mənzilə olan tələbatlarının ödənilməsi məqsədilə verilmiş ipoteka kreditlərinin həcmi cəmi kreditlərdə 10 faizlik paya malikdir və ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 milyon 770 min manat artaraq 4 milyon 734 min manata çatmışdır. Bu müddət ərzində ticarətin inkişafı məqsədilə verilmiş kreditlər isə 4 milyon 118 manat təşkil etmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 milyon 359 min manat çoxdur.

Əvvəlki illərlə müqayisədə kreditlərin daha çox cəlb edildiyi sahələrdən biri də nəqliyyat və rabitə sektorudur. 2015-ci ilin yanvar-iyul ayları ərzində bu sahənin inkişafı məqsədilə verilmiş kreditlər ötən ilin müvafiq dövrü ilə müqayisədə 5 milyon 906 min manat artaraq 5 milyon 921 min manat təşkil etmişdir.

Kreditlərin ötən illə müqayisədə artımı ilə bərabər, verilmiş kreditlərin ölkə üzrə ən aşağı faiz dərəcəsi də məhz muxtar respublikamızda müşahidə edilmişdir. Belə ki, Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatına əsasən, cari ilin birinci yarımilinin yekunlarına görə, ölkədə ən bahalı kreditlər cənub bölgəsində – Lənkəran iqtisadi rayonunda ayrılmışdır ki, burada kreditlərin orta illik faiz dərəcəsi 24,1 faiz təşkil etmişdir. Faiz dərəcəsinə görə növbəti yerlərdə Dağlıq Şirvan (23,3 faiz) və Aran (23 faiz) iqtisadi bölgələri dayanır.

Kreditlərin orta illik faiz dərəcəsi Şəki-Zaqatalada 22 faiz, Quba-Xaçmazda 20,8 faiz, Kəlbəcər-Laçında 19,9 faiz, Gəncə-Qazaxda 19,7 faiz, Yuxarı Qarabağda 19,6 faiz, Abşeronda 19,4 faizdir. Azərbaycanda ən ucuz kreditlər isə Bakı şəhəri istisna olmaqla, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar tərəfindən təklif olunub ki, bu kreditlərə tətbiq olunan orta illik faiz dərəcəsi 14,5 faiz təşkil etmişdir.

*Bu gün muxtar respublika sakinlərinə aşağı faizlərlə güzəştli kreditlərin təklif olunmasında əsas məqsəd məhz real sektorun və kənd təsərrüfatının inkişafına stimul verməkdən ibarətdir.*

**Tural ŞİRƏLİZADƏ**
***Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin İqtisadi təhlil və statistika şöbəsinin aparıcı mütəxəssisi***

***1919-cu il avqust ayının 18-də Azərbaycan Xalq Cümhuriyyətinin Parlamenti “Azərbaycan Respublikasının gömrük baxımından sərhəd mühafizəsinin təsis edilməsi haqqında” Qanun qəbul etmişdir. Bu, Azərbaycan Respublikasında Sərhəd Qoşunlarının yaradılması haqqında ilk qanunvericilik aktı idi. Ulu öndər Heydər Əliyevin 2000-ci il 16 avqust tarixli Sərəncamı ilə həmin tarix – avqustun 18-i hər il Azərbaycanda Sərhəd Qoşunlarının şəxsi heyətinin peşə bayramı kimi qeyd olunur.***

*18 avqust Azərbaycan Sərhəd Qoşunlarının şəxsi heyətinin peşə bayramıdır*

# Muxtar respublika sərhədləri etibarlı qorunur



Sərhəd qoşunlarının peşəkar milli zabit kadrlarla formalaşmasında, onlara yüksək xidmət və məişət şəraitinin yaradılmasında, hərbi potensialının artırılmasında ümummilli liderimizin misilsiz xidmətləri olmuş, sərhəd qoşunları dövlət sərhədlərinin etibarlı mühafizəsini təşkil etməyə qadir olan mütəşəkkil bir quruma çevrilmişdir. Azərbaycan Respublikası Sərhəd Qoşunlarının formalaşmasında ümummilli liderimizin siyasi fəaliyyətinin 1990-1993-cü illəri əhatə edən Naxçıvan dövrü müstəsna əhəmiyyətə malikdir. Bu dövrdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ilk milli sərhəd qurumları yaradılmışdır.

Ümummilli liderimiz Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildikdən cəmi dörd gün sonra, 1991-ci ilin sentyabr ayının 7-də Naxçıvanda Dövlət Müdafiə Komitəsinin yaradılması barədə qərar qəbul etmişdi. Bununla da, Azərbaycanda ilk peşəkar vahid komandanlığa tabe olan milli ordunun əsası qoyulmuşdu. Həmin vaxt Naxçıvandakı sərhəd dəstəsinin əmlakının, silah-sursatının tamamilə Azərbaycan sərhədçilərinə təhvil verilməsi işi də ölkəmizin milli maraqlarına uyğun şəkildə həll olunmuşdu. 1992-ci ilin avqust ayının 22-də Naxçıvandakı 41-ci sərhəd dəstəsi Azərbaycanın tabeliyinə keçmiş və sərhəd dəstəsində ilk dəfə müstəqil Azərbaycanın üçrəngli bayrağı qaldırılmışdı. Rusiya Sərhəd Qoşunları Baş Komandanlığı və Zaqafqaziya Sərhəd Qoşunları Dairəsinin rəhbərliyi ilə aparılan danışıqların nəticəsi olaraq, 1992-ci il sentyabrın 29-da isə 41-ci Sərhəd Dəstəsi ləğv olunmuş, onun bütün hərbi və təsərrüfat əmlakı Naxçıvanda yeni yaradılmış birinci Sərhəd Dəstəsinin sərəncamına verilmiş, 215 kilometrlik sərhəd ərazisi ilk dəfə olaraq milli sərhəd qoşunları tərəfindən mühafizəyə qəbul edilmişdi. Ümummilli lider Heydər Əliyev bu barədə demişdir: ***“Naxçıvanın qonşu İran və Türkiyə ilə sərhədləri on illərboyu rus qoşunları tərəfindən qorunmuşdur. Biz keçmiş Sovetlər İttifaqının, sonra isə Rusiyanın burada yerləşən 41-ci Sərhəd qoşunları hissəsinin buradan tamamilə çıxıb getməsinə nail olduq və Azərbaycanda ilk dəfə olaraq milli sərhəd qoşunlarının birinci dəstəsi yaradıldı... Bütün bunlar tarixi hadisələrdir və nəinki bugünkü, həmçinin gələcək nəsillər tərəfindən layiqincə qiymətləndiriləcəkdir”.***

Ölkəmizdə sərhəd qoşunlarının yaradılması ümummilli lider Heydər Əliyevin ali hakimiyyətə ikinci qayıdışından sonra da dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilmiş, Azərbaycan öz sərhədlərini müstəqil qorumağa qadir olduğunu nümayiş etdirmişdir.

Ümummilli liderimizin yolunu uğurla davam etdirən Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dövlət sərhədlərinin mühafizəsinə və sərhədçilərə göstərdiyi böyük qayğının nəticəsində Sərhəd Qoşunları daha da möhkəmlənir. Ölkə başçısı Dövlət Sərhəd Xidməti ilə bağlı bir çox fərman və sərəncamlar imzalamış, normativ-hüquqi baza təkmilləşdirilmişdir. Həmçinin Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının və mülki işçilərinin vəzifə maaşlarının artırılması, xidmətdə fərqlənənlərin orden və medallarla təltif edilməsi sərhədçilərdə böyük ruh yüksəkliyinin yaranmasına səbəb olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il dekabr ayının 27-də “Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi sisteminin 2006-2010-cu illərdə texniki inkişafına dair Dövlət Proqramı”nı təsdiq etməsi Sərhəd Qoşunlarında quruculuq işlərinə böyük təkan vermişdir. Göstərilən qayğı nəticəsində dövlət sərhədlərimizin daha da etibarlı şəkildə qorunması, hərbi hissələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir texnika, avadanlıq və ləvazimatlarla təminatı sahəsində tədbirlər görülmüş, şəxsi heyətin peşəkarlığı artırılmış, yeni sərhəd infrastrukturları yaradılmışdır. Ali Baş Komandan sərhədlərin qorunmasının əhəmiyyətini bildirərək demişdir: ***“Sərhəd hər bir dövlət üçün onun müstəqilliyini təcəssüm etdirən çox önəmli əlamətdir. Sərhəd müstəqillik deməkdir. Müstəqillik sərhədsiz mümkün deyil”.***



Sərhəd Qoşunlarının formalaşması və inkişafı istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər bu gün muxtar respublikamızda da uğurla davam etdirilir. “Naxçıvan” Sərhəd Diviziyasının maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqət mərkəzində saxlanılır, hərbi qulluqçulara yüksək dövlət qayğısı göstərilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 14 yanvar tarixli Fərmanı ilə Naxçıvan Sərhəd Dəstəsinin bazasında “Naxçıvan” Sərhəd Diviziyası yaradılmışdır. Bundan sonra muxtar respublikanın sərhədlərinin mühafizəsi, bu sahədə həyata keçirilən quruculuq işləri yeni mərhələyə qədəm qoymuşdur. Sovet dövründən qalan sərhəd zastavalarının yerində müasir sərhəd zastava kompleksləri tikilərək istifadəyə verilmiş, sərhədçilərin xidmət və məişət şəraiti əsaslı şəkildə yaxşılaşdırılmışdır. Muxtar respublikanın sərhəd zastavaları indi mərkəzləşdirilmiş istilik sisteminə, su və qaz təminatı olan müasir sərhəd strukturlarına malikdir.

“Naxçıvan” Sərhəd Diviziyasında aparılan quruculuq işləri davamlı xarakter daşıyır. Belə ki, 2005-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində Sərhəd Diviziyası qərargahının, əsgər xəstəxanasının, hamam-camaşırxana kompleksinin əsaslı təmiri, çörəkbişirmə sexinin tikilib istifadəyə verilməsi, Şərur sərhəd komendantlığının yenidən qurulması həyata keçirilmişdir. 2007-2012-ci illər ərzində isə ən müasir tələblərə uyğun doqquz sərhəd zastavası kompleks şəkildə tikilmiş, Culfa sərhəd komendantlığı yenidən qurularaq istifadəyə verilmişdir. Hərbi hissənin yaşayış şəhərciyinin binası da təmir olunmuş, yeni qazanxana inşa edilərək istilik sistemləri dəyişdirilmişdir. Anbarların, avtomobillərin saxlanılması üçün yeni saxlancların, qarovul və qazanxana binalarının inşası başa çatdırılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Müasir Azərbaycan sərhədçisi universal funksiyaların icraçısıdır. O, sərhədlərin mühafizəsi ilə yanaşı, beynəlxalq terrorizmə, təxribatçı qüvvələrə, narkotik maddələrin və silah-sursatın qanunsuz dövriyyəsinə, qaçaqmalçılığa qarşı da mübarizə aparmalı, fədakarlıq göstərməlidir”.***

“Naxçıvan” Sərhəd Diviziyasının şəxsi heyəti göstərilən qayğı və yaradılan şərait müqabilində bundan sonra da muxtar respublika sərhədlərini etibarlı qoruyacaq, ayıq-sayıqlıq nümayiş etdirəcəkdir.

***“Naxçıvan” Sərhəd Diviziyası***

# Möminə xatın türbəsinin qəlbində qədim Naxçıvan şəhəri



5,5 min kvadratkilometr əraziyə malik olan Naxçıvan Muxtar Respublikası 1924-cü il fevral ayının 9-da yaradılmışdır. Bir çox dünya alimlərinə görə, Naxçıvan Azərbaycanın digər əraziləri ilə müqayisədə daha qədim tarixə malikdir. Burada dünya sivilizasiyası üçün əhəmiyyətli olan bir çox tarixi abidələr vardır: Şərur rayonunda olan Alışar yaşayış məskəni, Kəngərli rayonunun Qarabağlar kəndində olan Bəzəkli qalası, İlanlıdağ və Nəhəcir dağlarının arasında olan dini ziyarətgah Əshabi-Kəhf mağarası. Naxçıvan nekropolları yer altında olan polixrom naxışlı nadir qabları ilə zəngindir. Qədim Şərur arxeoloji abidələri ilk dəfə Strabonun əsərlərində qeyd olunmuşdur. Burada olan digər tanınmayan tarixi məkanlar yalnız Azərbaycan tarixi üçün əhəmiyyətli deyil, həmçinin bu tarixi yerlər dünyanın ən qədim sivilizasiyasına işıq salmaq üçün dəyərli xəzinələrdəndir. Naxçıvan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kimi uzaqgörən dövlət rəhbərlərinin, alimlərin, tanınmış memarların, coğrafiyaşünasların və dahi yazıçıların doğulduğu torpaqdır.

1920-ci ildə Naxçıvan əhalisi Azərbaycanın ərazi bütövlüyünü qorumaq üçün Ermənistan işğalçılarına qarşı böyük mübarizə aparmışdır. 1929-1930-cu illərdə, Kremldə Sovet İttifaqı liderləri Naxçıvan Muxtar Respublikasının torpaqlarının bir hissəsini qonşu Ermənistana vermək barədə qərar qəbul etmişdir. Bunun nəticəsidir ki, hal-hazırda Naxçıvanın yalnız 5,5 min kvadratkilometr ərazisi qalmışdır.

O zaman iki böyük dövlətin səbəb olduğu bütün bu faciəli tarixi hadisələrə, birtərəfli və qeyri-qanuni qərarlara baxmayaraq, Naxçıvana muxtar respublika statusu verilmişdir. Bu region iqtisadi baxımdan inkişaf edir, Avropa və Asiyanın kəsişdiyi yerdə bütün dünyanı heyran edən qədim və orta əsr tarixi xəzinələri, qalaları, dini memarlığı ilə təəccübləndirir. Naxçıvan şəhəri qədim və orta əsrlərdə Möminə xatın türbəsi yaxınlığında aşkar edilmiş və divarlarının qalınlığı 13 metrə çatan kompleksin yerləşdiyi ərazidir. Bu ərazidə bir çox qazıntı işləri aparılmış və XVII əsrə aid tikililər aşkar olunmuşdur. Möminə xatın türbəsi yaxınlığında bir çox müxtəlif formalı qablar aşkarlanmışdır. Hazırda bu qablardan yalnız biri Naxçıvan Dövlət Tarix Muzeyində saxlanılır. Daha sonrakı illərdə həmin ərazidə orta əsrlərə aid mühüm memarlıq abidələri də aşkar edilmişdir.

Məşhur coğrafiyaşünas Kladius Ptolomey öz əsərlərində Naxçıvan şəhərini “Narınqala” adlandırmışdır.




Naxçıvan şəhəri ətrafında böyük divarları olan qala kimi təsvir edilmişdir. Böyük qala bölməsində aşkar olunan duluşçuluq, kasa, qəbirlər və bir çox digər kəşflər burada sivilizasiyanın klassik dövrə aid olmasından xəbər verir. Bu gün mövcud olan qala divarları orta əsrlərə aiddir və əhəng məhlulu, yaxud daşlardan inşa edilmiş və yarımdairəvi formalı qüllələrlə möhkəmləndirilmişdir. Qədim binalar, əsasən, qala divarları boyunca tikilib və kvadrat formalı otaqlardan ibarətdir. Bu otaqların damları müharibə zamanı döyüşçülər tərəfindən istifadə edilmişdir. Bu xüsusiyyətlərinə görə Narınqalanın Tunc və Dəmir dövrlərində tikilməsi tarixçilər tərəfindən sübut edilmişdir. Bu qalaya oxşar digər tarixi abidələrə Oğlanqala, Çalxanqala və Qazançıqalanı nümunə göstərmək olar. Digər tərəfdən bu qalanın altında yeraltı su kanalı vardır və müharibə zamanı, eləcə də sülh dövründə döyüşçüləri su ehtiyatı ilə təmin etmək üçün istifadə edilmişdir.

Naxçıvan sənətkarlıq və mədəniyyət mərkəzi kimi də inkişaf etmişdir. Naxçıvan Azərbaycan tarixinin inkişaf beşiyidir və Xəzər regionunda olan ən vacib qalaların mövcud olduğu ərazidir. Naxçıvan IX-XII əsrlərdə çox əhəmiyyətli bir regional inzibati mərkəz olmuşdur. X-XI əsrlərdə Naxçıvan şahlığı adlanan feodal dövlətinin, XII əsrdə isə Eldənizlər dövlətinin paytaxtı olmuşdur. Həmçinin sonrakı dövrlərdə də Naxçıvan inzibati mərkəz kimi öz strateji mövqeyini saxlamışdır. Naxçıvan XVIII əsrin ortalarında Naxçıvan xanlığının mərkəzi olmuşdur. 1983-cü ildə görkəmli alim və arxeoloq A.İ.Novruzlu Naxçıvanın orta əsrlər şəhəri olmasının əsaslarını daha detallı araşdırmağa başlamışdır. 1983-1991-ci illərdə aparılmış araşdırmalar zamanı əhəmiyyətli mədəni, inkişaf etmiş və zəngin həyatı təcəssüm etdirən çox qiymətli əşyalar, IX-XVII əsrlərə aid olan üç mədəni təbəqə aşkar edilmişdir. Burada aşkar olunmuş maddi-mədəniyyət nümunələri, əsasən, istehsal ehtiyatları, tikinti qalıqları, şirli və şirsiz keramika məhsullarından ibarət olmuşdur. Bu gün Naxçıvan Dövlət Universitetinin yerləşdiyi ərazidə aparılan tədqiqatlar şəhərin əsas hissəsinin qədim və orta əsrlərdə bu ərazidə olduğunu sübut edir. Şəhərin yüksək hissələrinə baxdıqda siz orada Əliabad qalasının divarlarını görə bilərsiniz. Bu qala möhkəm divarlarla tikilmiş və ordunu ağır döyüşlərdən müdafiə etmişdir.

Əliabad qalasında II minilliyə aid şirsiz saxsı nümunələr, eləcə də orta əsrlərə aid insan əli ilə hazırlanmış əsərlər aşkar edilmişdir. Mütəxəssislər burada böyük miqdarda taxıl, şaftalı, ərik, albalı, armud və alma toxumları aşkar etmişlər. Bu toxum qalıqları Azərbaycanda və onun tarixi tərkib hissəsi olan Naxçıvanda əhalinin orta əsrlərdə istehsal etdikləri kənd təsərrüfatı məhsullarının öyrənilməsi üçün böyük əhəmiyyət kəsb edir.

Naxçıvan şəhərində aşkar edilən keramika nümunələri, Zaqafqaziyada, Yaxın və Orta Şərqdə tikilmiş digər qalalar ilə çox oxşar xüsusiyyətlərə malikdir. Bu dövrlərdə Naxçıvanla qonşu regionlar arasında böyük iqtisadi, mədəni əlaqələrin olması burada tapılan keramik plitələrlə sübut edilmişdir. Naxçıvanda olan Narınqalanın kiçik qala hissəsində Çin yazısı ilə lövhə aşkar edilmişdir. Naxçıvan şəhərində olan Narınqala XVII əsrin ortalarına qədər müdafiə istehkamı kimi istifadə edilmişdir. Lakin Səfəvi-Osmanlı müharibələri zamanı qala çox dağılmış və sonradan qalanı həmin vəziyyətinə qaytarmaq mümkün olmamışdır. Daha sonra bu qalanın hərbi əhəmiyyəti yavaş-yavaş itmiş və bir müddət yerli əhali tərəfindən yaşayış yeri kimi istifadə edilmişdir.

Azərbaycanın bu regionu mühüm abidələr, nadir ibadət yerləri, muzeylər və qalaları qoruyub saxlamış və dünya tarixində daha əhəmiyyətli yerə layiq olan sülhsevər insanları özündə cəmləşdirmişdir.

**Peter TASE**
***10.08.2015***
***Amerika Birləşmiş Ştatlarının “Foreign Policy News” qəzeti***

# Heydər Əliyev adına tam orta məktəb bu il də böyük uğurlar qazanıb




*Heydər Əliyev adına tam orta məktəb fəaliyyətə başladığı dövrdən keçən müddət ərzində ulu öndərin adına layiq işi ilə təkcə Naxçıvan Muxtar Respublikasının deyil, ölkəmizin təhsil sistemində öz qabaqcıl yerini tutmuşdur. Ötən ilin oktyabr ayında bu təhsil ocağının 10 illik yubileyi münasibətilə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir ki, təhsil sahəsində qazanılan nailiyyətlər hər bir ölkənin milli sərvətidir. Heydər Əliyev adına tam orta məktəb ötən 10 ildə savadlı və vətənpərvər gənc nəslin yetişdirilməsi sahəsində uğurlu fəaliyyət göstərmiş, təlim-tərbiyə prosesində həmişə qabaqcıllar sırasında olmuşdur. Ölkənin tərəqqisi təhsildən, təhsilin inkişafı isə müəllimlərin fəaliyyətindən asılıdır. Bu məktəbdə də əldə olunan nailiyyətlər müəllim tələbkarlığının və şagird çalışqanlığının nəticəsidir. Heydər Əliyev adına tam orta məktəb muxtar respublikanın qabaqcıl təhsil mərkəzi kimi bundan sonra da fəaliyyətini genişləndirməlidir.*

Bəli, bu il qəbul imtahanlarında qazanılan uğurlarla məktəb ulu öndərin adına layiq fəaliyyət göstərdiyini bir daha sübut etdi. Belə ki, 2014-2015-ci tədris ilində məktəbi bitirən məzunlardan 59-u ali məktəblərin, 2-si isə orta ixtisas məktəblərinin tələbəsi adına layiq görülüb. Onlardan 15 nəfəri 500-700 intervalında bal toplayıb. Məktəbin məzunlarından 4-ü 600 balı keçərək göstərilən etimadı doğruldub. Həmin gəncləri oxucularımızla tanış edirik:



***Nurlan RZAYEV:*** – Təhsil aldığım illərdə dərslərimə yaxşı hazırlaşmışam. IX sinfi fərqlənmə şəhadətnaməsi ilə bitirmişəm. Fənn olimpiadalarında uğurlu nəticələr əldə etmişəm. Uğur qazanmağımın ən böyük səbəblərdən biri məktəbimizdə yüksək təhsillə yanaşı, tez-tez keçirilən sınaq imtahanları idi. Həm də mən həmişə məktəb kollektivi tərəfindən həvəsləndirilmişəm. Ötən il Ali Məclisin Sədri tərəfindən mənə nootbuk hədiyyə edildi. O qədər sevinirdim ki, bunu sözlə ifadə edə bilmirəm. Onu da deyim ki, bacım və qardaşım da ali məktəb tələbələridir. Qarşıma məqsəd qoymuşdum ki, daha yüksək nəticə əldə edim. Sevinirəm ki, arzuma çatdım. Builki qəbul imtahanlarında 682 bal toplayaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquqşünaslıq ixtisasına qəbul olundum. Bundan sonra məni daha məsuliyyətli illər gözləyir. Mən ali məktəbə qəbul olmaqla işimi bitmiş hesab etmirəm. Əvvəlcə onu deyim ki, əgər gələcəkdə öz xalqına və dövlətinə layiq vətəndaş kimi yetişmək istəyirsənsə, çox çalışmalısan. İnanıram ki, təhsilimi uğurla başa vuracağam.



***Şənhəyat ABBASOVA:*** – Ulu öndər Heydər Əliyevin adını daşıyan məktəbdə təhsil almaqla həmişə qürur duymuşam. Hara getsəm, fəxrlə bu məktəbin məzunu olduğumu deyəcəyəm. Və sevinirəm ki, məktəb kollektivimizin və ailəmin ümidlərini boşa çıxarmadım. Ailəmizin birinci övladıyam. Atam və anam tələbə valideyni olduqlarına görə çox sevinirlər. Uşaqlıqdan ədalət tərəfdarı olduğumdan gələcəkdə ədalətli hüquqşünas olmaq istəyirəm. Orta məktəbdə dərslərimi əla qiymətlərlə oxuyurdum. Bunun üçün məktəbimizdə hər cür şərait yaradılıb. Ötən il məktəbimizin 10 illik yubileyi geniş şəkildə qeyd olundu. Hamımız çox sevinirdik. Yubiley tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bizə verdiyi tövsiyələr məni daha da ruhlandırdı. İmtahanlara az müddət qalmasına baxmayaraq, gücümü topladım. Hədəfimə doğru ilk addımı atdım. 655 bal toplayaraq tələbə adını qazandım. İxtisas seçimimdə muxtar respublikanın ali məktəblərinə üstünlük verdim. Və Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasına qəbul olundum.



***Kazım ƏKBƏROV :*** – Orta məktəbdə oxuyarkən sınaq imtahanlarında yüksək bal toplayırdım. Hədəfim böyük idi. Qəbul imtahanlarında 600 balı keçməyi qarşıma məqsəd qoymuşdum. Sevinirəm ki, bu arzuma çatdım. 623 bal toplayaraq Qafqaz Universitetinin Mühəndislik fakültəsinə qəbul olundum. Onu da deməyi özümə borc bilirəm ki, məzunu olduğum tam orta məktəbdə yaradılan şərait uğur qazanmağımın başlıca səbəblərindən biridir. Bu gün tələbə adını qazanmaq, məncə, heç də çətin deyil. Yaşadığımız dövr indiki gənclərdən yüksək bilik, intellektual səviyyə tələb edir. Bunlara nail olmaq üçün bizə yaradılan şəraitdən düzgün və səmərəli istifadə edən hər kəs istədiyinə nail ola bilər. Muxtar respublikada təhsilə qayğı əsas vəzifəyə çevrilib. İndi bir arzum da var: tələbəsi olduğum ali məktəbdə mükəmməl təhsil alıb yaxşı mühəndis kimi yetişmək. Buna nail olmaq üçün var gücümlə çalışacağam.



***Könül BAĞIROVA:*** – Mən 617 bal toplayaraq Naxçıvan Dövlət Universitetinin İngilis dili müəllimliyi ixtisasına qəbul olunmuşam. Uşaqlıqdan xarici dillərə böyük marağım olub. Məktəbimizdə ingilis dili fənni yüksək səviyyədə tədris olunur. Ümumiyyətlə, məktəbimizdə yaxşı oxumaq üçün bütün imkanlar var. Müəllimlərimiz hər bir şeyi dərindən öyrənib qavramağımız üçün səylə çalışırdılar. Nəticə isə həm məni, həm valideynlərimi, həm də məndən bu uğuru gözləyən müəllimlərimi çox sevindirdi. Bundan sonra da öz üzərimdə çalışacaq, harada oxumağımdan, harada olmağımdan asılı olmayaraq, savadlı, vətənpərvər vətəndaş kimi yetişəcək, Azərbaycan gəncliyinin adını qoruyaraq biz gənclərə göstərilən etimadı doğrultmağa səy göstərəcəyəm.

*Bəli, ulu öndər Heydər Əliyevin qurduğu müstəqil Azərbaycanda gənclər öz vətənpərvərliyi və intellekti ilə müstəqilliyimizin möhkəmləndirilməsində, ölkəmizin inkişafında öz fəallıqları ilə seçilirlər. Heydər Əliyev adına tam orta məktəbin kollektivi də məhz belə gənclərin yetişdirilməsi üçün əlindən gələni əsirgəmir. Bu təhsil ocağı bundan sonra da ölkəmizin qabaqcıl məktəbləri sırasında olacaq, məktəbin məzunları müstəqil Azərbaycanın və muxtar respublikamızın daha da çiçəklənməsi üçün böyük uğurlara imza atacaqlar.*

**Sara ƏZİMOVA**

***Turizm sektorunun inkişafı dünyanın qabaqcıl ölkələrində ciddi önəm verilən məsələlərdən biridir. Bu sahənin inkişafı həm də iqtisadi yüksəlişin ən mühüm göstəricisidir. Ona görə də ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında turizmin bir çox növlərinin inkişafı üçün təbii imkanlardan istifadə ciddi önəm verilir. 2013-cü ilin iyul ayının 24-də Şahbuz rayonunun Ağbulaq kəndində Ağbulaq İstirahət Mərkəzinin istifadəyə verilməsi bunun bariz ifadəsidir.***



# Məktəblilər Ağbulaq İstirahət Mərkəzindən razılıq edirlər

Məlumat üçün bildirək ki, Ağbulaq kəndi ekoloji təmizliyi, flora və faunasının zənginliyi ilə seçilir. Ərazisi 3,5 hektar olan mərkəz 3 yaşayış korpusundan və 1 yeməkxana binasından ibarətdir. İkimərtəbəli və 56 yerlik korpuslarda, ümumilikdə, 38 otaq mövcuddur. Otaqlarda istirahət üçün hər cür şərait yaradılmış, havalandırma sistemləri quraşdırılmışdır. Yeməkxana binasında 80 nəfərlik yemək zalı, mətbəx, ilkin tibbi yardım və 6 iş otağı yaradılmışdır. Kompleksin ərazisinə 2 kilometr məsafədən içməli su xətti çəkilmiş, həyətdə futbol meydançası yaradılmış, uşaq əyləncə qurğuları quraşdırılmışdır.

Mərkəzin açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı" ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilir. Dövlət proqramına uyğun olaraq, muxtar respublikada turizmin müxtəlif sahələrinin inkişafı təmin edilir, turizm infrastrukturu yenidən qurulur. Həyata keçirilən tədbirlər çərçivəsində kənd turizminin yaradılması da diqqət mərkəzində saxlanılır. Bu gün istifadəyə verilən Ağbulaq İstirahət Mərkəzi ölkəmizdə kənd turizminin tətbiqi sahəsində həyata keçirilən ilkin tədbirlərdəndir".***

Ağbulaq İstirahət Mərkəzinin yaradılması böyük əhəmiyyət daşıyır. Belə ki, hələ keçmiş Sovetlər Birliyi dövründə muxtar respublikamızın ucqar və füsunkar kənd yaşayış məntəqələrində məktəblilərin yay düşərgələri təşkil olunurdu. Düşərgələrdə dincələn məktəblilərin asudə vaxtlarının səmərəli təşkili, onların yurdsevərlik, kollektivçilik ruhunda tərbiyəsi diqqət mərkəzində saxlanılırdı. Burada məktəblilər müxtəlif idman yarışlarına, viktorinalara cəlb edilir, digər kütləvi yarışlar keçirilirdi. Bütün bunlar onların asudə vaxtlarının səmərəli təşkilini təmin edirdi.

Bir məsələni xüsusi vurğulamağa ehtiyac var ki, sovet dönəmindən fərqli olaraq Ağbulaq



İstirahət Mərkəzində iş prinsipi daha geniş formada qurulmuşdur. Əgər o dövrdə belə ünvanlarda ancaq məktəblilər dincəlirdisə, indiki mərkəzdə qrup şəklində olaraq tələbələrin, məktəblilərin, sosial müdafiəyə ehtiyacı olan ailələrin övladlarının, fiziki imkanları məhdud uşaqların asudə vaxtlarının səmərəli keçirilməsinə şərait yaradılıb. Bu günlərdə həmin mərkəzdə olduq. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı, qrup rəhbəri Pənah İsmayılov bildirdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə gənclər və aztəminatlı ailələrin uşaqları "Yay məktəbi" çərçivəsində Ağbulaq İstirahət Mərkəzində yay tətili günlərini səmərəli keçirirlər. Bu yay tətili günlərində Naxçıvan və Şərur rayonlarının hər birindən, Babək və Şahbuz rayonlarından isə birlikdə 45 məktəbli, Naxçıvan Dövlət Universitetinin və "Naxçıvan" Universitetinin bir qrup tələbəsi "Yay məktəbi"ndə iştirak ediblər. Ümumilikdə, bu yay tətili günlərində 135-i tələbə, 225-i şagird, 35-i sağlamlıq imkanları məhdud uşaqlar olmaqla, 395 nəfərin Ağbulaq İstirahət Mərkəzində dincəlməsi nəzərdə tutulub. Qarşıdakı günlərdə Sədərək və Kəngərli rayonlarının 45 məktəblisi buraya gələcək.

Öyrəndik ki, burada Ordubad və Culfa rayonlarının tam orta məktəblərindən gəlmiş 45 məktəbli 5 müəllimin rəhbərliyi ilə dincəlir. Pənah müəllim bildirdi ki, tərtib olunmuş tədbirlər planına əsasən, şagirdlər arasında futbol yarışı, şeir və rəsm müsabiqələri, "Xəmsə" intellektual oyunları, poeziya gecəsi keçirilib. Məktəblilər Şahbuz şəhərindəki Tarix-Diyarşünaslıq Muzeyinə, Batabat yaylağına, rayonun gəzməli, görməli yerlərinə ekskursiyalara aparılıblar. Bu ünvanlarda onlara Şahbuz rayonunun yeraltı və yerüstü sərvətləri, təbii abidələri, tarixi barədə ətraflı məlumatlar verilib.

Fürsətdən istifadə edərək Ordubad rayonundan gəlmiş qrup rəhbəri Gündüz Babayevin fikirlərini öyrəndik. O bildirdi ki, son illər muxtar respublikada məktəblilərin hərtərəfli inkişafını təmin etmək məqsədilə bir sıra tədbirlər reallaşdırılıb. Bu tədbirlər onların dünyagörüşünün formalaşmasında, yurdumuzun hərtərəfli öyrənilməsində mühüm rol oynayır. Bu baxımdan Ağbulaq İstirahət Mərkəzinin fəaliyyəti yüksək dəyərləndirilməlidir. Mərkəzə gələnədək bu obyekt haqqında bir qədər məlumatımız var idi. Biz burda olduğumuz müddətdə bir daha yaradılmış şəraitlə yaxından tanış olduq. Burada hər şey tam ürəyimizcədir. Ağbulağın çox gözəl, təmiz havası ilə həmahəng olan füsunkar təbiətinin fonunda burada qurulan müasir infrastruktur valehedicidir. Xidmətin yüksək səviyyədə təşkil edilməsi və hər bir məsələyə diqqətlə yanaşılması istirahətimizin daha mənalı keçməsinə imkan verdi. Buna göstərilən yüksək xidməti də əlavə etsək, onda Ağbulaq İstirahət Mərkəzinin bura gələnlər üçün necə böyük əhəmiyyət daşıdığını görmək olar. Buna görə təşkilatçılara öz minnətdarlığımızı bildiririk.

Məktəblilərlə də görüşdük. Azadkənd tam orta məktəbinin şagirdi Aysu Məmmədova:

– Beşgünlük istirahətin necə başa çatdığını hiss etmədim. Çünki burada rəngarəng tədbirlərdə iştirak etdim, özümə yeni dostlar qazandım. Arzu edirəm ki, mənim kimi bütün məktəblilər belə mərkəzlərdə öz vaxtlarını yaxşı keçirsinlər.

*Vaxt çatıb. Geri qayıtmalıyıq. Müəllim və məktəblilərlə vidalaşırıq. Onların çöhrələrindəki təbəssümü sezmək çətin deyil. Bu təbəssümdə dövlətimizə onlar üçün yaradılmış şəraitə görə minnətdarlıq hissləri var. Bu da təbiidir. Çünki bu gün muxtar respublikamızda gəncliyin sağlam böyüməsi üçün həyata keçirilən tədbirlər günün reallığıdır.*

**Muxtar MƏMMƏDOV**

# İnformasiya cəmiyyəti: sosial şəbəkələr və ailə dəyərlərimiz

## *Ailə dəyərlərimizi qoruyaq və yaşadaq*

***Mövzu həm cəmiyyətimizin axarına, həm də hər bir gəncin həyat yolunun istiqamətinə təsir imkanları olan, son illər gündəmdən düşməyən informasiya-kommunikasiya texnologiyalarının gətirdiyi yeniliklər, xüsusən də sosial şəbəkələrin ailə münasibətlərinə təsiri ilə bağlıdır. Məqsəd gənclərin həyatımıza daxil olan bu yenilikdən düzgün istifadə etmədikdə xalqımızın ailə dəyərlərinə vurduğu zərbələri izah etmək, ailə dəyərlərimizin müqəddəsliyini və həyatımızdakı əvəzsiz rolunu xatırlatmaqdır.***

Müasir informasiya cəmiyyətinin xüsusiyyətlərindən biri informasiyanın bütün sahələrdə aparıcı rol oynamasıdır. Sözsüz ki, sivilizasiyanın inkişaf səviyyəsindən asılı olaraq kompüter və elektron texnologiyaların, internetin, o cümlədən sosial şəbəkələrin həyatımıza daxil olması hazırda insanların bu qurğularla paralel yaşamasına səbəb olub. Bu mənada cəmiyyətin əsas inkişafda olan, gücü sayılan gənclərin informasiya resurslarından istifadəsi digər əhali qruplarına nisbətdə daha yüksək göstərici ilə müşahidə olunur. Lakin təəssüf hissi ilə qeyd edək ki, bu qurğulardan istifadə zamanı bəzən qarışıq informasiya bolluğuna düşən, vaxtdan, vəziyyətdən düzgün istifadə edə bilməyən bəzi gənclər və yeniyetmələr xarakterlərindən, düşdükləri mühitdən asılı olaraq gündəlik həyatlarında müəyyən problemlərlə rastlaşır, onların həlli yollarını tapmaqda çətinlik çəkirlər.

Yaşadığımız informasiya cəmiyyətində gənclərin sosial şəbəkələrdən istifadəsini ümumi xarakteristikasına görə iki qrupa bölmək olar. Bir qrup gənclər sosial şəbəkələrdə xalqımızın tarixini, ictimai-mədəni həyatını və dövlətçiliyi təbliğ edir. Bu, hər zaman dəstəklənir və xalqımıza, dövlətimizə faydalı olmaqla yanaşı, gənclərin ictimai-siyasi və sosial həyata inteqrasiyası kimi qiymətləndirilir. Digər gənclər isə fəaliyyət və şəxsi həyatlarına xələl gətirəcək, heç bir faydası olmayacaq səpkidə sosial şəbəkələrdən istifadə edir. Bu, birmənalı olaraq qəbuledilməzdir və təəssüf doğurur. Belə bir çərçivədə gənclər tərəfindən sosial şəbəkələrə yanaşma təkcə onların şəxsi obrazlarına mənfi təsir etmir, eləcə də xalqımızın milli-mənəvi simasının eroziyaya uğrama təhlükəsi yaradır.

Müasir dövrdə bəzi gənc ailələrin adət-ənənədən, milli dəyərlərdən uzaqlaşmasının sosial problemlərlə əlaqəsi yoxdur. Düşünürəm ki, buna informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı nəticəsində meydana çıxan digər spektrli problemlər kontekstindən yanaşmaq zəruridir. Dünyanın bir çox regionlarındakı səmərəsiz "virtuallaşma" problemini qloballaşmanın "küləyinin" yaşadığımız regiona gətirməsi etiraf etməliyik ki, qaçılmazdır. Bunun ailə institutumuza zidd olmasını hamımız bilməli və sosial şəbəkələrdən düzgün istifadə metodunu bacarmalıyıq. Xüsusən də yeni ailə quran gənclər ailə dəyərlərinə, əxlaqi prinsiplərə daha çox üstünlük verməli, əsrlərdən süzülüb gələn ənənələrimizi yaşatmağı özlərinə borc bilməlidirlər. Çünki xalqımızın adət-ənənəsinin, ailə dəyərlərinin bugünkü sahibləri gənclərdir və gələcək nəsillərə çatdırılmasında onlar bir körpüdürlər. Dərindən analiz etdikdə görərik ki, gənclərin keçmişlə gələcəyi bağlayan funksiyası, ilk olaraq, ailədən başlayır. Bu baxımdan gənclərin sosial şəbəkələrdən qeyri-düzgün istifadəsi ənənəvi, mental dəyərlərə söykənən ailədaxili münasibətlərə xələl gətirir. Məsələn, açıq desək, ailəni quran tərəflər ailəsinin bütövlüyünə xələl gətirəcəyi sosial şəbəkədə özünün marağında olan insanları tapır, eyni məkanda öz istəyinə uyğun insanları axtarırlar. Bu tendensiya, eyni zamanda ailənin digər üzvlərinə də sirayət edir. Beləliklə də, ailə məkan kimi qalır, amma daxilində olan dəyərlər dağılmağa başlayır. Ailə daxilində kiçikdən-böyüyə, böyükdən-kiçiyə olan münasibətlər istiqamətini dəyişir. Ailə daha əvvəlki ailə olmur, milli-mənəvi dəyərlərin daşıyıcısı olmaq funksiyasını get-gedə itirməyə başlayır. Ailədə olan hər bir insan artıq özünü kobud şəkildə azad subyekt kimi hiss edir. Bu da, əlbəttə ki, ilk növbədə, əxlaqi dəyərlərə ziddir. Bəzi gənclər ətrafındakı yaxınları ilə, yəni ailə üzvləri ilə danışmaq, ünsiyyət yaratmaq əvəzinə sosial şəbəkələrdə tanımadığı insanlarla ünsiyyət qurmağa üstünlük verir və uzun müddət virtual məkanda qalırlar. Vaxt ötür, illər keçir belə bir şəraitdə yaxın insanlar, həmçinin ailə üzvləri arasında münasibət soyuyur, onların arasındakı məsafə gün-bəgün çoxalır. Sosial şəbəkələr, elektron poçtla dəyərsiz yazışma – bütün bunlar ailədəki vaxtı virtual aləmə qurban verən məsələlərdir. Bəzən gənclər sosial şəbəkələrə o dərəcə bağlanır ki, bir gün statusunu yeniləməsə özünü çox narahat hiss edir.

Ailəni quran tərəflər bilməlidirlər ki, sosial şəbəkələrdə qiyabi tanışlıqlar istər-istəməz doğma ailəsini yad bir insanın kölgəsində qoyur. Öz həyat yoldaşını qiymətləndirmək bacarığı məhdudlaşır, ailə və cəmiyyət qarşısında daşıdığı məsuliyyət dayazlaşır, beləliklə, boşanmanın ilk səhifəsi açılmış olur. Ailə daha dərin məzmun daşımır, adiləşir. Etiraf etməliyik ki, ailəni dağıdan bu amillər ailə üzvlərinin asudə vaxtının düzgün təşkil olunmaması ucbatından meydana gəlir. Birgə gəzintiyə çıxmaq, istirahət və görməli yerləri dolaşmaq, qohum-əqrəbanın ziyarətinə getmək ata, ana və övlad halqasını daha sıx bir-birinə bağlayır. Bəzən vaxtın yoxluğu ilə bunların mümkünsüzlüyündən dəm vuranlar saatlarla kompüter qarşısında faydasız, xeyir gətirməyən işlər üçün oturmağa da qiymətli vaxt sərf olunduğunu unutmamalıdırlar.

Xalqımız həmişə ailələrin möhkəmliyi ilə fəxr edib. Ailənin möhkəmliyinin təməlində ailə üzvlərinin dünyagörüşlərinin və xarakterlərinin uyğun olması, qarşılıqlı hörmət, güzəştə getmək bacarığı, bir-birinə önəm vermək, qayğı göstərmək, məsuliyyət hissi, ailəyə görə daşıdığı vəzifələri dərk etmək kimi bir çox məsələlər vardır. Ailə üzvləri arasında səmimi, mədəni münasibət, böyük-kiçik yerinin bilinməsi, valideyn-övlad münasibətlərinin düzgün qurulması cəmiyyətimizdə ailələrə xas olan keyfiyyətlər olub və bundan sonra da olmalıdır. Keçmişdə ailələrdə övlad dünyaya gəldiyi gündən onu milli-mənəvi dəyərlərimizlə tərbiyə ediblər deyəndə başa düşülməlidir ki, o dövrdə bu, hansısa bir metod və çərçivədə reallaşmayıb. Ailədəki insanların gündəlik davranış və hərəkətlərindən qaynaqlanıb. Bu gün hər bir gənc ailənin qarşısında qərinələr, əsrlərboyu formalaşmış milli dəyərləri pak və sağlam niyyətlərlə qoruyub cəmiyyətin inkişafına təsir göstərmək, həmçinin xalqın genetik yaddaşını, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək kimi çətin və məsuliyyətli missiya dayanır. Çünki bütün milli-mənəvi dəyərlərimiz ailədə təşəkkül tapıb, şaxələnib, təkamül yoluna qədəm qoymuşdur. Ailə üzvlərinin bir-birlərinə qarşı davranış mədəniyyəti, münasibəti də ulu baba və nənələrimizin bizə miras qoyub getdiyi milli dəyərlər kontekstində ailə dəyərlərimizdəndir. Hər bir qurulan yeni ailə nəyin bahasına olursa-olsun, bunu yaşatmalıdır.

Ailə təktərəfli münasibət əsasında yaranan qurum deyil. Bu səbəbdən ailə üzvlərinin hər biri milli-mənəvi dəyərlərin, ailə mədəniyyətinin, nəsillərarası münasibətlərin qorunub saxlanılması üçün öz üzərinə düşən öhdəlikləri yerinə yetirməlidir.

Cəmiyyətin, dövlətin formalaşması və inkişafında ailə mühüm halqadır. Mənəvi baxımdan sağlam ailə sağlam cəmiyyətin, güclü dövlətin özülüdür. Ailənin, ilk növbədə, mənəvi sağlamlığı yerində olmalıdır. Mənəvi sağlamlıq dedikdə ailənin bütün üzvlərinin mənəvi keyfiyyətlərə sahib olması, onların soy-kökə uyğun həyat tərzidir. Bir az da konkretləşdirsək belə ifadə etmək olar ki, cəmiyyətimizdə əxlaqi keyfiyyətlərin üstün tutulmasının həyatımızda və taleyimizdəki rolunu heç nə ilə əvəz etmək olmaz. Bizim coğrafiyada yaşayan insanlar ta qədimdən bu dəyərlərlə böyüyüb və genində bunu daşıyır.

Ailənin mənəvi sağlamlığının əsas kriteriyaları qismində ailə dəyərlərinin üstün tutulması, böyük-kiçik arasında məmnunluq, münasibətlərə adaptasiya, ailənin uzunömürlü olmasına meyillilik və sair amillər çıxış edir. Mənəvi keyfiyyətlərin qırmızı xətlə keçdiyi ailədə ailənin hər bir üzvü bərabər səviyyədə tutulur, ailədaxili ünsiyyət lazımi səviyyədə olur, ailənin üzvləri bir-birini dəstəkləyir, hər bir ailə üzvü onun bütövlüyü üçün məsuliyyət hiss edir. Ailənin bütün üzvləri yaşadıqları ailə həyatından pozitiv enerji alır, burada adət-ənənə əsas yer tutur, hər kəs bir-birinə hörmət edir və onu olduğu kimi qəbul edir, çatışmazlıqlar təhqir yox, tənqid olunur. Budur, kökündə ailə dəyərlərinin dayandığı ailə tipi. Ailənin mənəvi sağlamlığının bu kriteriyaları xalqımıza məxsus ailə modelinin ümumi portretini çəkir və hər şeydən əvvəl, onun xoşbəxtliyini xarakterizə edir. Gənclər, ilk növbədə, bu dəyərlərə sadiq qalmalı, ailələrini əxlaqi və ailə dəyərləri ilə izolyasiya etməlidirlər. Nəzərə almaq lazımdır ki, adət-ənənələrin, ailə dəyərlərinin gündəlik yaşayış tərzimizdən çıxdaş edilməsi sonda ailələrimizin dağılmasına gətirib çıxara bilər.

Sevindiricidir ki, bu gün qədim xalq adət-ənənələri, milli-mənəvi dəyərlər əsasında formalaşmış dövlətimiz var. "Kiçik dövlət" hesab olunan ailələrdə də milli-mənəvi və xüsusən də ailə dəyərləri ağır çəkiyə malikdir. Amma bu və ya digər səbəblər üzündən cəmiyyətin bəzi üzvləri tərəfindən bu dəyərlər göz önünə alınmır və sonda xoşagəlməz hallar baş verir. Bu hallar isə, ilk növbədə, ailələrin dağılması ilə nəticələnir.

Bir sözlə, gəlinən yekun qənaət budur: bu gün gənclərin üzərinə düşən vəzifə – ailə dəyərlərinin qorunması ötəri maraqlara və dəyərsiz hislərə deyil, ənənələrə əsaslanmalıdır. Gənclər modernləşən dünyamızda yaşadıqları həyat tərzi ilə ailə institutunun təməllərinin möhkəmliyinin qorunmasına töhfə verməli, özlərinin timsalında ailə modelimizin nüfuzunun artmasına nail olmağa çalışmalıdırlar. Düşünürəm ki, bu zaman nəinki sosial şəbəkələrin, eləcə də hər bir inkişaf prosesinin fundamentində ailə dəyərlərimizi möhkəmləndirərək bunun fonunda ailələrimizin bütövlüyünü qoruya, ailə institutumuzu yaşada bilərik.

**Sahir RÜSTƏMOV**
***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri***



***Müasir dövrü virtual məkansız təsəvvür etmək mümkün deyil. Bu ucsuz-bucaqsız məkanda hər gün müxtəlif dəyişikliklərlə bərabər, texnoloji yeniliklərin də şahidi oluruq. Bu günlərdə 15 yaşlı Naxçıvan məktəblisinin yeni ixtirası isə, sözün həqiqi mənasında, texnologiya dünyasına mühüm töhfə sayıla bilər. "Mr.VOOL" adlı proqramın yaradıcısı İsmayıl Şirzadovla "Şərq qapısı" qəzetinin redaksiyasında görüşüb söhbət etdik. İlk sualımız isə özü haqqında oldu:***

# Naxçıvanlı məktəblidən möhtəşəm ixtira

***– İsmayıl, istərdik əvvəlcə özün haqqında məlumat verəsən.***

– 2000-ci ildə Əliabad qəsəbəsində anadan olmuşam, 16 nömrəli tam orta məktəbdə təhsil almışam. Ailəmizin ən kiçik üzvüyəm. 15 yaşım var. Bu il Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseyə qəbul olunmuşam. Təhsilimi orada davam etdirəcəyəm.

***– Kompüter proqramlarının hazırlanmasına nə vaxtdan başlamısan və yeni layihə hansı texnoloji yenilikləri özündə əks etdirir?***

– Əvvəlcə onu deyim ki, kompüter texnologiyasına marağım kiçik yaşlarımdan başlayıb. Fərdi şəkildə evdə daim bu texnologiya ilə məşğul olmuşam. Getdikcə müxtəlif kompüter proqramlarının hazırlanmasına daha çox maraq göstərmişəm və bu maraq da, əsasən, onunla bağlı olub ki, istifadəçilər üçün internetdən istifadə daha asan olsun. Yeni layihə haqqında isə onu deyə bilərəm ki, hazırladığım "Mr.VOOL" proqramı internet istifadəçiləri üçün səsli axtarış imkanını təqdim edir. Məsələn, gün ərzində internetdə axtarış sistemləri vasitəsilə müxtəlif ünvanlar və sair axtarırıq. Yeni proqramda isə axtardığımız hər bir obyekti, sadəcə, dilimizdə bir dəfə səsləndirməklə tapa bilirik. Sadə bir izahat verim. Proqramı yüklədikdən sonra, deyək ki, "Chrome" brauzerini açmaq istəyirsiniz, siz, sadəcə, "Open Chrome" deyirsiniz, brauzer avtomatik olaraq açılır. Və yaxud Yahoo, Google axtarış sistemlərində hər hansı bir obyekti axtararkən axtardığınız obyektin ingiliscə adını söyləyirsiniz və həmin obyekt axtarış sistemində üzə çıxır. Hər hansı bir proqramdan çıxmaq istədiyinizdə "Exit" sözünü deyirsiniz. Proqram özü avtomatik olaraq bağlanır. Bundan əlavə, səslə kompüteri söndürmək və yenidən açmaq da mümkündür. Ümumiyyətlə, "Mr.VOOL" proqramı vasitəsilə kompüterdəki bütün proqramları, faylları, CD yerini açıb-bağlamaq olar.

***– Bəs proqrama Azərbaycan dilində əmrlər verilsə necə?***

– Hazırladığım proqramda ingiliscə əmrlərin tərtib olunmasına səbəb yaxın müddətdə proqramı dünya bazarına çıxarmaq istəyimlə bağlıdır. Onu da qeyd etmək istəyirəm ki, proqramı istifadəçilərə mane olmasın deyə, hər zaman kompüterdə arxa planda çalışdırmaq mümkündür. Yəni bu proqram vasitəsilə həm internetdə axtarışlar etmək, həm də kompüter daxilindəki proqramları səs vasitəsilə idarə etmək mümkündür.

***– Bəs gələcək planların haqqında nə deyə bilərsən?***

– Hazırda proqram üzərində təkmilləşdirmə işləri aparıram. Yaxın gələcəkdə proqrama kompüterdəki səhifələrin aşağı-yuxarı hərəkətini təmin edən idarəetmə, mətnlərin proqram tərəfindən səsli oxunuşu və əksinə, səsləndirilən mətnlərin yazılması kimi funksiyaları əlavə etmək istəyirəm. Bundan əlavə, görmə qabiliyyəti məhdud insanlar üçün səsli idarəetmənin tətbiqi də gələcək planlar içərisindədir. Məqsədim internet istifadəçilərinin rahatlığını yüksək səviyyədə təmin etməkdən ibarətdir.

***– Müsahibə üçün sağ ol, gələcək işlərində uğurlar arzulayıram.***

✍ **Səbuhi HƏSƏNOV**

# Kitab sərgisi keçirilib

Adil Babayev adına Naxçıvan Muxtar Respublikası Uşaq Kitabxanası tərəfindən hər il olduğu kimi, 2015-ci ilin yay mövsümündə də məktəbli oxucuların asudə vaxtlarını səmərəli keçirməsi məqsədilə Naxçıvan şəhərinin ictimai yerlərində kitab sərgiləri, kitab müzakirələri təşkil edilir. Bu tədbirlər məktəblilərin kitab və kitabxanalara marağının artırılmasına, onların mütaliə mədəniyyətinin inkişaf etdirilməsinə müsbət təsir göstərir.

Belə tədbirlərin bu ilin sentyabr ayının 15-dək davam etdirilməsi nəzərdə tutulub. Kitabxananın direktoru Kamal Axundovun bildirdiyinə görə, bu günədək yay mövsümü ərzində 15-dən çox belə tədbir təşkil olunub. Bu tədbirlər Naxçıvan şəhərindəki "Böyük bağ" Mədəniyyət və İstirahət Parkında, Heydər Əliyev Mədəniyyət və İstirahət Parkında, Dədə Qorqud Meydanında, şəhərin "57-ci" məhəlləsinin 1 və 2 nömrəli, "Çənlibel" məhəlləsinin 27, 28 və 29 nömrəli, Heydər Əliyev prospektindəki 9/4 nömrəli, "İstiqlal" küçəsinin 125 nömrəli binalarının həyətində, Qaraçuq və Əliabad qəsəbələrində keçirilib. Tədbirlərdə, ümumilikdə, 1000 nəfərdən çox məktəbli iştirak edib, 40-dan çox məktəbli kitabxanaya oxucu kimi üzv qəbul olunub.

Avqust ayının 14-də isə kitabxana kollektivi Şahbuz rayonundakı Ağbulaq İstirahət Mərkəzində məktəblilərin qonağı olub.

Kitabxana əməkdaşları 300-dən çox yeni çap olunan bədii ədəbiyyatla məktəbliləri tanış ediblər.

**Xəbərlər şöbəsi**

*İtmişdir*

Səfərov Məmməd Telman oğlunun adına olan ümumvətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 630